# Təbriz əfsərlik məktəbini qurtaranların cəşnində

Düşənbə günü azad demokrat Azərbaycan öz parlaq milli müvəffəqiyyətlərinin birisinin şahidi oldu. Bu gün müqəddəs odlar yurdunun 250 nəfər rəşid və qəhrəman oğlu əfsərlik dərəcəsinə yetişib milli yaşayışı və Azərbaycan azadlığının müdafi'əsini və İran istiqlaliyyəti və tamamiyyətini hifz etmək üçün hazır və amadə olmaqlarını e`lam etdilər.

Bu məktəb birinci dəfə olaraq, düzgün bir tərbiyət üsulu, vahid məqsəd, hədəf və ideal üzrə həmin əfsərləri tərbiyə edib vətənimizə, millətimizə xidmət etəmk üçün Azərbaycan cami'əsinə təhvil vermişdir.

Dünənki sadə vəli ehsasatlı mərasimdə də'vət olunanların və Milli Hökümətimizin üzvləri, demokrat firqəsinin rəhbərləri və bu məktəbin mürəbbilərinin gözlərində şadlıq nuru parlayırdı. Məktəbin fərmandehi müəssir bir ləhn ilə öz sadə güzarişini oxudu. Bu mə'nalı cümlələr ki, bizim cami'ənin yeni həyatının parlaq bır nümunəsidir, hələ də qulaqlarımızda səslənir.

Bu az müddətdə Azərbaycan xalqının müxtəlif təbəqələrindən olan hərbi məktəbşagirdləri açıq və azad ruh, möhkəm bir iradə ilə dərs proqramının ağırlığına dözüb və səhərdən axşama qədər yorulmadan proqramın əməli qismətlərini öyrənməyə çalışırdılar. Bunların hədəfi vətən yolunda fədakarlığa hazır olmaqdır.

Dünənki təhsilatını qurtaran əfsərlər Azərbaycan cami'əsinin müxtəlif təbəqələrindən intixab olunmuşlardır.

Keçmiş dövrdə öz evladını xidmətdən ma'af etməkdən ötrü min cürə təşəbbüsat edənlər indi gülər üz və möhkəm bir iman ilə öz oğullarını vətənə xidmət etmək üçün Milli Hökümət ixtiyarına qoyurlar.

Hərbi əfsərlik məktəbinin fərmandehi bu məktəb ilə Tehran əfsəri danişkdəsinin tə'limatlarını müqaisə etdikdən sonra belə nəticə aldı ki, Tehran əfsərlər danişkədəsində şagirdlərin vaxtının bir çox hissəsi, iki il yarım va üç ildə fəqət puç və beməsrəf nəzəri qismətləri öyrənmək nəticəsində tələf olur və'mlli qismətlərə isə çox təvəcceh edilmir, bir surətdə ki, bizim hərbi əfsərlik məktəbində şagirdlər ümumən təhsilkərdə cavanlardan intixab olmuşlar və vaxtlrını fəqət əməli qismətləri öyrənməyə sərf etmişlərdir.

Buna görə bizim taza əfsərlərimiz hər heysdən onların intizarında olan vəzifələri əncam verməyə amadədirlər.

Onlar məmuriyyət yerlərinə getməyə tələsib, bir birlərini qabaqlayırlar.

Azərbaycan Milli Hökümətinin baş vəziri aqayi Pişəvəri xalqın gurultulu alqış və ehsasatı arasında, hərbi məktəbin açılışı zaman mövcud olan mane’ələr barəsində bəhs edərək belə dedi:

Mümkündür ki, yüz illərlə bir yerdə sabit qalan bir millət qət’i və sürə'tli bir hərəkət nəticəsində böyük müvəffəqiyyətlərə nayil olsun və öz dalı qaləmasını cübran etsin. Bu bir tarixi hərəkətdir ki, millətimizi indiki tərəqqi və müvəffəqiyyətəlrə yetirmişdir.

Millətin qüvvəsi yatmış bir yanar dağ kimidir ki, əgər tüğyan edə böyük qüdrətlər nişan verəcəkdir.

Bizim xalqımızın böyük müvəffəqiyyətlərinin birisi də həmin bu hərbi əfsərlik məktəbinin təsisi dir ki, böyük maddi müşküata baxmayaraq təşkil edilmişdir.

Bu məktəb öz dörd aylıq proqramını iki ayda bitirməyə müvəffəq olmuşdur.

Bu az müddətin ərzində bir nimayiş təhiyyə etmək çox çətin bir işdir. Vəli bizim millət öz möhkəm imanı və sarsılmaz iradəsi sayəsində bu böyük hərəkət və tərəqqini müvəffəqiyyətlə başa çatdırmışdır.

Bizim taza və cavan əfsərlərimiz ali hədəfə və möhkəm imana malik olaraq azadlıq vurğunudurlar.

Onlar əziz vətənlərinə xidmət etmək üçün tələsib, fədakarlıqda müsabiqə verirlər.

Bu, göstərir ki, xalqımız öz vətən, azadlıq, dil, adab və rüsumunu sevib var qüvvəsilə ondan mudafı'ə etməyə hazırdır...bizim cavan əfsərlərimiz Azərbaycan qoşununda xidmət edəcəklər. Biz bu qoşunu Tehran hökümətinə tapışırmayacayıq. Bu qoşunun fərmandehləri Azərbaycanlılar olacaqlar.

Bu qoşun Azərbaycan azadlığı və İran istiqlaliyyətinin zaminidir.

Xarici bir təcavüz və təərrüz olduqda bizim milli qoşunumuz İran istıqlaliyyətini və tamammiyyət ərzisini mudafi'ə etməyə hazırdır. Eyn halda Azərbaycan qoşunu İranda demokrasi üsulunun mudafe'i olan bir qüvvədir. Bu səbəbədir ki,Tehranın çürümüş və fasid rejimindən bezar olan azadlıq sevən əfsərlər Azərbaycana gəlib bizim qoşuna daxil olurlar.

Azərbaycan demokrat firqəsinin sədri, əfsərlik məktəbinin fərmandeh və mürəbbilərindən təşəkkür edərək son sözündə belə dedi: Bizim qoşunumuz millətdən ayrı deyil, bizim qoşunda əfsərlərimiz arasında, siyasi məsalələr sadə üsul üzrə tə’lim edilir.

Siyasi tə’limatın hədəfi- yalnız Azərbaycan xalqının qarşısında dura müqəddəs bir hədəfin rövşən edilməsidir və o da Azərbaycan azadlığı və İranın istiqlaliyyət və tamamiyyətinin müdafi'əsidir.

**Xalqımız qoşunu, yə’ni öz qəhrəman və fədakar əfradını olduqca sevir.**

**Xalqımız demokrasi və azadlığın həqiqi mə’nasını anlayıb, var qüvvəsilə ondan mudafi'ə edəcəkdir.**

**Bu cür bir millət həmişə baş uca yaşayacaqdır...**

**«Azərbaycan» ruznaməsi, nömrə 205, ikinci dövrə 4 şənbə, xurdad 1325-ci il**